# NAĞILLAR

## Ac qurd

Uzaq zamanlarda bir dana qurd varımış, bu qurd yatar-yatar acuxur, fikir elər, fikir elər, deyər nəmə eliyim? Çıxım eşiyə bəlkə bir yeməli tapum yeyim. Gedər, gedər, görər bir dana keçi, deyir:

- Keçi, yeyim biləyi?[1]

Keçi deyir:

–Mən aruğam, heç nəməm yox, qoy gedim gətirim ikiynən üç ondan ye məni.

Bunu deyir və alladur çıxıb gedər.Qurd gedər görər bir dana quzu, deyir:

–Quzu, yeyim səni?

Quzu deyir:

-Mən aruğam, heç nəməm yox, qoy gedim gətirim dadunnan duzu, ondan məni ye.

O da alladur çıxır gedər. Qurd gedər görər bir dana. Danaya deyər:

- Dana, yeyim səni?

Dana deyir:

- Yo, qoy bir atullum[2] bu pana[3] attulum, o pana ondan ye məni.

Bu da alladur, çıxar gedər. Qurd gedər görər bir dana at. Deyər:

- At, yeyim mən səni?

At deyər:

- Yo, məni yemə, qoy gedim gətirim gəməzinək[4] barat, ondan ye məni.

O da alladur çıxar, gedər. Qurd gedər görər bir dana dəvə. Deyir:

- Dəvə yeyim biləyi?

Deyir:

- Burda məni yemə, mən ucayam, görəllər biləyi, gələllər, vurallar,ölləy. Gəl min daluma aparum bir çalada ye məni, heç kimsə görməsin. Görəllər biləni, gələrlər, vurarlar ölərsən.

Dəvə alar daluna lənqur-lənqur, lənqur-lənqur aparar salar bir çaluya, orda o qədər təpiyində vurar, qurd leh olar.

Qurd öz-özünə deyir:
Köpək oğlunun qurdu,
Getdiy gördüy keçi,
Yiyeydin qalaydı iki qıçı.
Nelirdi gedə gətirə ikinin üçü,
Nəmə çobanluğa gedirdiy?

Getdiy, gördüy quzu,
Yeyeydin qalardı iki gözü.
Gedə gətirə dadunan duzu,
Nəmə həlimpəzxanuya[1] gedirdin?

---

[1] Biləyi (Orta İran, yaxud Qum-Savə türkləri şivəsində)- səni, özünü
[2] Attulum-atılım
[3] Pana-uçurum, təpə
[4] Qəməzinək-qəbz

Getdiy gördüy dana,
Yiyeydiy, qalaydı yəsi[1] yana-yana,
Nelirdiy attula, bu pana attula, o pana.
Nəmə Rüstəmi-pəhluvanlıq örgətirdiy?

Getdiy gördüy at,
Yeyəydiy, qalaydı yəəsi mat.
Neylirdiy gedə gətirə ğəbznən barat.
Nəmə soltanluğa gedirdiy?

Getdiy gördüy dəvə,
Yeyəydiy, qalaydı yəəsi gəvə.
Neylərdiy apara təpə ağ qalada evə
Vura lət və par[2] eliyə.

**Söyləyən: Səfiyə Qədiri**